# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TƏBİƏTİ

**Zərifə Quliyeva**

*YAP-ın Veteranlar Şurası, Bakı*
*AMEA Qadınlar Şurasının İdarə Heyəti, Bakı*
*gunay_cabarova@mail.ru*

Hər bir xalqın, millətin böyüklüyü onun yetirdiyi böyük şəxsiyyətlərlə ölçülür, hansı ki, dar gündə, çətin vaxtda yalnız ona arxalanır. Bu baxımdan Azərbaycan xalqı xoşbəxtdir ki, Heydər Əliyev kimi əzəmətli bir şəxsiyyəti həyata bəxş edib. Elə bir şəxsiyyət ki, mənsub olduğu xalqını, dogma Azərbaycanı bütün dünyaya tanıtdı. Elə bir şəxsiyyət ki, 1990-cı il qanlı yanvarda öz həyatını təhlükə qarşısında qoyaraq özünün tarixi Moskva Bəyanatı ilə Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı. Elə bir şəxsiyyət ki, Qarabağ cəbhəsində atəşkəsə nail olmaqla ölkədə nizami ordu quruculuğuna başladı. Elə bir şəxsiyyət ki, müstəqil Azərbaycanın qurucusu, memarı oldu, müstəqilliyimizin əbədiliyini və dönməzliyini təmin etdi. Elə bir şəxsiyyət ki, bütün ömrünü canından çox sevdiyi xalqına, doğma Azərbaycana bağışladı.

Ulu Öndərin ən böyük arzusu müstəqil Azərbaycanı yaratmaq idi. O, buna nail oldu. Ulu Öndərin böyük amalının qarşısını almaq üçün bədxah qonşularımız xalqımız üçün Qarabağ problemi yaratdı. Vətənimizin ayrılmaz parçası olan gözəl Qarabağımızı əlimizdən qoparmaq düşmənlərimizin çoxdankı arzusu idi. Paxıllıq, bədxahlıq simvolu olan erməni qəsbkarları namərd və nankor havadarları ilə ölkəmizin bu guşəsini qəsb edərkən onun təbiətini də talan etmiş, ekosistemini məhv etmişlər. Ulu Öndər ana yurdumuzu qarış-qarış gəzərkən, onun inkişafının təməl planlarını qurarkən heç vaxt ekologiyanı, təbiəti yaddan çıxarmamışdır. Çünki Tanrı bizə bənzərsiz bir təbiət gözəlliyi bəxş etmişdir. Dünyanın ən böyük alimləri, ekoloqları ölkəmizdə olmuş, nadir təbiətimizin füsunkarlığından vəcdə gəlmişlər. Bütün dünya həm tarix, həm təbiət baxımından Azərbaycanımızı ən nümunəvi coğrafi məkan hesab edir. Elə buna görə də Heydər Əliyev Azərbaycan təbiətinə xüsusi önəm verir, onun daim təbii və ilkin toxunulmazlığını qorumağın vacibliyini zəruri sayırdı.

Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş ekoloji qərarlar, qanunlar, sərəncamlar ölkəmizin təbiətinin qorunmasına yönəlmişdir. Bu iş ardıcıl, müntəzəm və sistem halında görüldüyü üçün böyük səmərə vermişdir. Təbiətə yönəlik hər hansı qəsd Ulu Öndəri çox hiddətləndirərdi: "Mən 1993-cü ildə Bakıya gələrkən bizim əkdiyimiz, becərdiyimiz bəzi ağacların kəsilməsini görərkən elə bildim ki, məni yaralayıblar. Mən dəfələrlə demişəm, bir də deyirəm, kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir... İnsan qurmalıdır, yaratmalıdır... hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir. Ona görə də Siz hər bir ağacı qorumalısınız, hər bir ağacın qorunması uğrunda mübarizə aparmalısınız..."

Bu sözlərdə görkəmli dövlət xadiminin böyüklüyü qədər sadəliyi, fikirlərinin dərinliyi qədər şəffaflığı öz əksini tapır. Biz burada qəbul etdiyi qərarların arxasında duran saf qəlbli qüdrətli bir insanın durduğunu görürük.

Ulu Öndər Heydər Əliyevin zəngin maddi sərvətlərimizə – yaşıllığa, meşələrə, dağlara, çaylara, bulaqlara, bir sözlə, təbiətə münasibəti onun azərbaycançılıq ideyasının tərkib hissəsi idi. Bu münasibətlərdə Azərbaycana nəhayətsiz sevgidən, ana Vətənə məhəbbətdən doğan heyrətamiz bir cazibə qüvvəsi vardı. Dünyanın tanınmış siyasətçisi, xalqın əbədi lideri, Ulu Öndərin təbiət sevgisində də dövləti idarə etmək səriştəsi, Azərbaycanı dünyaya tanıtmaq missiyası möhkəm və dönməz idi.

Təbiət anadır. Azərbaycan təbiəti isə anaların ən sevimlisi, istəklisi, övlad üçün varını-dövlətini əsirgəməyən zəngin sərvət sahibidir. Yorulanda, sıxıntımız olanda, canımız ağrıyanda təbiətə üz tuturuq. O da mehriban ana kimi bizə qucağını açır, ruhumuzu oxşayır, bizə rahatlıq gətirir. Elə buna görə də hər bir insan da min bir dərdin dərmanı olan təbiətə-anaya eyni həssaslıqla yanaşmalıdır, qarşılıqlı ehtiram, məhəbbət göstərməlidir. Bütün məqamlarda olduğu kimi, bu sahədə də bəşərin dahi müəllimi, Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevdən öyrənmək, onun tövsiyələrindən bəhrələnmək faydalı olardı. Bu tövsiyələrdə ağacın, yaşıllığın, saf və təmiz ekologiyanın insana xidmət etdiyi, onun özü qədər qiymətli olduğu nəzərə çarpır.

Ulu Öndər Heydər Əliyevin fəaliyyətində ekoloji vəziyyətin daha da yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə edilməsi məsələləri həmişə xüsusi diqqət mərkəzində olmuşdur. Təsadüfi deyil ki, məhz Ümummilli Liderimizin 1969-1982 və 1993-2003-cü illərdə respublikamı-

za rəhbərlik etdiyi dövrlərdə ekologiya və ətraf mühitin mühafizəsi sahəsində mühüm qanunlar və qərarlar qəbul edilmiş, bu sahədə çox böyük dəyişikliklər həyata keçirilmişdir.

Müstəqillik əldə ediləndən sonra respublikada bir sira struktur islahatları aparılmış, ətraf mühitin qorunması və təbii ehtiyatlardan istifadənin ayrı-ayrı aspektləri ilə məşğul olan və fəaliyyətlərində qismən bir-birini təkrarlayan bir sıra komitə və birliklər ləğv edilərək onların bazasında Prezidentin 23 may 2001-ci il tarixli 485 saylı Fərmanı ilə AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmışdır.

Bütün bu tədbirləri xırdalığına qədər izləyən, görülən işlər barədə daim məlumatlandırılan Ümummilli Lider özü də əlinə bel alıb ağacəkmə, yaşıllığa qulluq kampaniyalarında fəal iştirak edirdi. Şıx çimərliyində "Xalqlar dostluğu" parkı yaradılanda iş rejiminin gərgin vaxtlarında belə Ümummilli Lider Heydər Əliyev vaxt tapıb buradakı bütün iməciliklərə qatılırdı...

Ümummilli Lider Heydər Əliyevin ölkəmizdə ekologiyanın qorunması ilə bağlı əsasını qoyduğu ənənə bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Təsadüfi deyil ki, ölkəmizdə reallaşdırılan milli inkişaf strategiyasının prioritet istiqamətlərindən biri ətraf mühitin mühafizəsini və insanların sağlam təbii mühitdə yaşamasını ən yüksək səviyyədə təmin etməkdir. Dövlətimizin Başçısı neftlə və digər istehsalat tullantıları ilə çirklənmiş torpaqların, lay suları altında qalan ərazilərin ekoloji vəziyyətinin yaxşılaşdırılmasına da xüsusi diqqət göstərib. Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə bağlı əməli işlər görülüb, ölkədə milyonlarla ağac əkilib, yeni park və xiyabanlar salınıb. Bir vaxtlar neft tullantıları ilə çirklənən indiki "Ağ şəhər" və digər ərazilərdə görülən işlərin nəticəsində neft çöküntüləri təmizlənib. Bu ərazilər paytaxtın müasir yaşayış və mədəniyyət komplekslərinə, Prezident İlham Əliyevin dediyi kimi, müasir ekoloji layihələrə çevrilib. Bütün bunlar ətraf mühitin qorunmasına, xüsusilə də vətəndaşların sağlam mühitdə yaşamasına xidmət edir. Ekoloji vəziyyətin yaxşılaşdırılması üçün tədbirlərin görülməsi, xüsusilə qanunsuz ağac kəsənlərin qarşısının alınması ilə mübarizədə Dövlətimizin Başçısının nümayiş etdirdiyi qətiyyətli mövqenin təməlində isə yalnız bir amal dayanıb: insanların sağlamlığını qorumaq!

Bu gün möhtərəm Prezident İlham Əliyev, hörmətli Birinci Vitse-prezident Mehriban xanım Əliyeva Ulu Öndərin ekoloji arzu və planlarını dönmədən qətiyyətlə həyata keçirirlər. Yaşıllaşdırma, kütləvi ağacəkmə, mövcud yaşıllıqlara aqrotexniki xidmət stabil və davamlı prosesə, vətəndaş vərdişinə çevrilmişdir.

Ulu Öndərimizin müdrik siyasətini uğurla davam etdirən Prezidentimiz cənab İlham Əliyev təbiətə dövlət qayğısını daim diqqət mərkəzində saxlayır. Təbiətin mühafizəsi ilə əlaqədar yeni şəraitə uyğun Milli proqramlar hazırlanır. Əlbəttə, cənab Prezident İlham Əliyevin imzası ilə həyata keçirilən bu proqramlar təbiətimizin daha da zənginləşməsindən, təbii sərvətlərimizin etibarlı və effektli mühafizəsindən xəbər verir. O cümlədən, COP-29-un Azərbaycanda keçirilməsi barədə qərar ölkəmizə etimadın və hörmətin təzahürüdür. Dövlət Başçısı qeyd edib ki, "COP-29-un Azərbaycanda keçirilməsi barədə qərar regional sülh gündəliyinin irəliyə aparılması kontekstində əldə edilib və bu, ümumiyyətlə, COP-un tarixində yeni bir inkişafdır." (https://report.az/amp/cop29/ilham-eliyev-cop29-un-azerbaycanda-kecirilmesi-barede-qerar-olkemize-etimadin-ve-hormetin-tezahurudur/)

Bu gün müstəqil Azərbaycan Respublikasında ekologiya sahəsində görülən işlər dünyanın diqqətini cəlb edir.

Prezident İlham Əliyev ağacların qanunsuz olaraq kəsilməsinin yolverilməz olduğunu və bu qanunsuzluqlara qarşı daim ciddi tədbirlər görülməsinin, belə hallara yol verən şəxlsərin məsuliyyətə cəlb edilməsinin vacibliyini bildirərək demişdir: "Biz ekoloji vəziyyətlə bağlı məsələləri daim diqqət mərkəzində saxlayırıq. Ancaq içtimaiyyəti də, məni də narahat edən məsələ ağacların kəsilməsi məsələsidir. Buna yol vermək olmaz. Hesab edirəm ki, biz burda daha da ciddi məsuliyyət tətbiq etməliyik. Ağackəsmə tam şəkildə dayandırılmalıdır.

Ancaq nadir hallarda, o da Ekolgiya və Təbii Sərvətlər Nazirliyinin rəyi ilə hardasa ağac ya köçürülə, ya kəsilə bilər. Ona görə mən dəfələrlə bu məsələlərlə bağlı öz fikrimi bildirmişəm. Deyə bilərəm ki, vəziyyət əvvəlki illərə nisbətən daha müsbətdir. Ancaq biz istədiiymizə tam şəkildə nail ola bilməmişik. Gecə vaxtı gəlirlər, qanunsuz olaraq ağacları kəsirlər, yerləri düzəldirlər ki, ev tiksinlər. Bu, vicdansızlıqdır, bu, biabırçılıqdır, bu, cinayətdir".

Heydər Əliyev Azərbaycan təbiətinin hamisi və xeyirxahı idi. Bu gün onun ruhu şaddır. Doğma Qarabağ işğaldan azaddır. Erməni vandalizminin vəhşi talançılığına, təbii sərvətlərimizi məhv etdiyinə baxmayaraq, Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müdrik rəhbərliyi altında Qarabağa vurulan yaralar sağalır, onun əvvəlki ecazkar, bənzərsiz təbiəti dirçəldilir.